# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№355/6** **13 aprel 2023-cü il**

## Keyfiyyətə nəzarət qrupunun müfəttişlərinin təsdiq edilməsi barədə

Auditorlar Palatası Şurasının 2023-cü il 14 mart tarixli 354/3 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"ın 2.9-cu bəndinə uyğun olaraq Auditorlar Palatasının Keyfiyyətin idarə edilməsi şöbəsi (Q.Əhmədov) tərəfindən təqdim edilmiş Keyfiyyətə nəzarət qrupunun müfəttişlərinin siyahısını nəzərdən keçirərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Keyfiyyətə nəzarət qrupunun müfəttişləri aşağıdakı tərkibdə təsdiq edilsin:

| **Sıra №-si** | **Adı, soyadı və atasının adı** | **İcazə nömrəsi** | **Təşkilat/sərbəst auditor** |
|---|---|---|---|
| 1. | Hacı-Əzizov İlham İsfəndiyar oğlu | SA/258 | Sərbəst auditor |
| 2. | Kərimov Şamxal Vəli oğlu | SA/467 | Sərbəst auditor |
| 3. | Məmmədov Davud Zahid oğlu | SA/410 | "Davud Mamedov" MMC-nin direktor-auditoru |
| 4. | Səfərova Aygün Saday qızı | SA/333 | Sərbəst auditor |
| 5. | Talıbov Vidadi Musa oğlu | SA/389 | Sərbəst auditor |

2. Keyfiyyətin idarə edilməsi şöbəsinə (Q.Əhmədov) və Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə (V.Rəhimov) tapşırılsın ki, müfəttişlərə əməli köməklik göstərilməsi və onların müntəzəm olaraq ixtisasartırma kurslarına cəlb edilməsi təmin edilsin.

3. Maliyyə və texniki təminat idarəsinə (V.Rəhimova) tapşırılsın ki, təsdiq edilmiş qaydaların 2.6-cı "Auditorun keyfiyyətə nəzarəti Palatanın vəsaiti hesabına keçirilir" və 1.4.6-cı "Müfəttiş – Auditorlar Palatasının tərkibində xidməti müqavilə əsasında cəlb olunmuş peşəkar səviyyəli auditor" bəndlərini rəhbər tutaraq iki həftə ərzində nəzarət qrupunun müfəttişləri ilə xidmət müqavilələrinin bağlanması təmin edilsin.

4. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**